# "Yaxşı ki, göylərdə yaşayıram mən"



**Vaqif Bəhmənli ilə (Vaqif Quliyevlə) özümüzdən qabaq sözümüz görüşmüşdü - "Bakı" qəzetində, 30 mart 1973-cü ildə. Onun "Tumurcuq" şeiri ilə bir səhifədə mənim də "Elə hey yazırsan", "Misram dağdan su içə" adlı şeirlərim dərc olunmuşdu. ADU-nun (indiki BDU-nun) Jurnalistika fakültəsinin birinci kurs tələbəsi idim. Ancaq bilmirdim ki, bir neçə aydan sonra bu fakültəyə sözünü görüb, üzünü görmədiyim Vaqif Quliyev də qəbul olunacaq və biz eyni müəllimlərdən dərs alıb, ədəbi dərnəklərə gedəcək, mətbuat orqanlarında çap olunacağıq.**

İndi bilmirəm necədi. O İllərdə jurnalistika, filologiya fakültələrinə qəbul olunan tələbələrin əksəriyyəti şeir yazırdı - buna şeir demək mümkünsə. Bu, gəncliyin qanına işləyən romantik əhvaldan və ixtisas seçiminin "yan təsirlərindən" irəli gəlirdi. Ancaq, birinci kursda 15 nəfər "şeir" yazırdısa, ikinci kursda 5-i, ələk-xəlbirdən sonra axırıncı kursda bir-iki həqiqi şair qalırdı. Məndən bir yaş və bir kurs kiçik olan Vaqif isə fitrətən şair doğulmuşdur. Universitetin bayram tədbirlərində, müxtəlif görüşlərdə Vaqifin oxuduğu şeirlər auditoriyanı aramsız alqışlarla silkələyərdi. Onun şeirlərinin hər kəlməsinə, hər misrasına hopmuş səmimiyyət var.

*Nəfəsim alışıb gör necə yandı,*
*Yalvarram, o qızdan aralan, üzük.*
*Bəxtimə dolanan qızıl ilandı*
*Sənin barmağında saralan üzük.*

Yaxud:

*Doqqaz dinsə taqqa-taq*
*Bilərdim bu səs nədi.*
*Soruşardın çaparaq:*
*"Mənim nənəm sizdədi?"*

Tələbə yoldaşlarının, qələm dostlarının əzbər bildikləri bu şeirləri sevdirən, yaddaşa hopduran cəhət öncə sözün cövhərindəki səmimiyyət idi. Zaman keçdikcə "Tumurcuq" şeirinin müəllifi "yarpaqlamağa", "budaqdan yeni budaq" kimi şaxələnməyə başladı. Poetik istedadı və məhsuldarlığı ilə Vaqif Bəhmənli kütləvi oxucu auditoriyasının və elmi-ədəbi mühitin diqqətini çəkdi. İxtisasca jurnalist olan V.Bəhmənli müxtəlif illərdə, müxtəlif mətbuat orqanlarında rəhbər vəzifələrdə çalışdı. Bu vaxta qədər onun publisistika sahəsində fitri istedadını təsdiqləyən minlərlə məqaləsi dərc olunub ki, bunların da əksəriyyəti tarixi yazılardır. Eləcə də onun tatar, rus, türk ədəbiyyatından dilimizə çevirdiyi irihəcmli proza və poeziya nümunələri ədəbi əlaqələr baxımından olduqca dəyərlidir.

Vaqifin tanınmış şəxsiyyətlər haqqında yazdığı portret oçerklər və monoqrafik kitablar heç də onun poetik yaradıcılığından geri qalmayan dəyərlər toplusudur. Bu baxımdan onun "Vətənin ilhamı. Ömürdən reportaj", "Azərbaycanın xalq bayramı - Novruz", "Maqomayev planeti", "Heydər Əliyev adına", "Hüseynqulu Sarabski", "Qəzənfər Paşayev", "İri planda Qulu Məhərrəmli", "Sözün canı" kimi əsərləri sadəcə publisistik meyarlara cavab verən nümunələr deyil, həm də ciddi elmi-ədəbi araşdırmaların nəticəsidir. Vaqif bütün varlığı ilə millidir, millətsevər, yurdsevərdir. Şeirlərinin birində yazır:



*Baxıb gözündən olan,*
*Dünya dizindən olan,*
*Özü özündən olan*
*Balaca bir adamam.*

Yaradıcılığı hələlik 15 cildə sığan sənətkarın özünə "balaca bir adam" deməsinə inanmasam da "dünyanın dizindən olmasına" inanmağım gəlir. Müxtəlif ədəbi görüşlərdə, poeziya festivallarında, seminarlarda Vaqif Bəhmənli ilə bir yerdə olmağımdan həzz almışam. Bu tədbirlərin ikisi mənim yaddaşıma əbədi həkk olunub: Gənc ədiblərin Şüvəlan seminarı və Gürcüstanda keçirilən "Mayakovski poeziya günləri".

1976-cı ildə Sov.İKP MK-nın yaradıcı gənclərə qayğı ilə bağlı xüsusi bir qərarı çıxanda Azərbaycan Yazıçılar İttifaqı bu qərardan irəli gələn vəzifəni yerinə yetirmək üçün istedadlı gənclərin müsabiqəsini təşkil etmişdi. Münsiflər heyətinin ciddi imtahanından keçən gəncləri bir aylıq seminara - yazıçıların Şüvəlanda yerləşən yaradıcılıq evinə aparmışdılar. O dövrün gənc qələm sahibləri sırasında Afaq Məsud, Mahirə Abdulla, Mənzər Eynullayeva, Sultan Mərzili, Ağacəfər Həsənli, İslam Türkay, Tofiq Nurəli, Maarif Soltan, Səyyad Aran, Akif Əhmədgil... Vaqif Bəhmənli və mən də vardım. Bir aylıq seminarın rəhbəri gözəl şair, səmimi insan Çingiz Əlioğlu idi. Hər gün bir gəncin yazıları dinlənilib, müzakirə edilir və dəyərləndirilirdi. Yadımdadır ki, Vaqif Bəhmənlinin şeirləri seminar iştirakçılarına müsbət enerji, yeni ruh verirdi. Yetmişincilər ədəbi nəslinin bu seminarında rus və Azərbaycan yazıçılarının da qonaq qismində çıxışları, tövsiyələri olurdu. Xalq şairləri - Cabir Novruzun, Nəriman Həsənzadənin, Xalq yazıçısı Hüseyn Abbaszadənin biz gənclərə verdikləri ədəbi və həyati məsləhətlər unudulmaz tarixi anlar idi. Zaman göstərdi ki, adları çəkilən gənc yazarların seçimində münsiflər yanılmayıbmışlar... İndi o gənclərin əksəriyyəti tanınmış imza sahibləridir.

1984-cü ildə Vaqif Bayatlı Odər (Cəbrayılzadə), Vaqif Bəhmənli və mən Kutaisidə keçirilən "Mayakovski poeziyası günləri"nə birlikdə getmişdik. Səfərimiz olduqca maraqlı keçmişdi. Sovetlər Birliyinin müxtəlif respublikalarından tədbirə qatılan gənc şairlərlə təmas sonradan tərcümə mübadiləsinə çevrilmişdi. Özbəkistanın Xalq şairi Osman Əzimlə mənim mübadiləm kimi.

Vaqif Bəhmənlinin şeirlərində insan-cəmiyyət münasibətləri, təzadlı həyat lövhələri, alovlu məhəbbət motivləri, əsrarəngiz təbiət gözəllikləri, ənənəvi ailə dəyərləri, bir sözlə, yerin-göyün fəlsəfəsi sənətkarlıqla qələmə alınıb:

*Od tökür göylər...*
*sığınmalı bir kölgə varsa -*
*sözdü.*
*Əfsanədi bütün inqilablar,*
*yaşamalı ölkə varsa -*
*sözdü.*
*Hər şirin sevdanın sonunda*
*ölüm, ayrılıq...*
*Yolunda məcnun olmalı*
*ölümsüz sevgi varsa -*
*sözdü.*

Bizim klassiklərin - Nizamidən, Füzulidən Sabir, Seyid Əzimə kimi hər birinin yaradıcılığında sözə ithaf olunmuş qəzəl və qəsidələrə rast gəlmək mümkündür. Çağdaş poeziyamızda sözə dəyər vermək Vaqifin orijinal dəst-xəttinin məhsuludur. Ümumiyyətlə, o, hansı mövzuda yazmağından asılı olmayaraq özünü, öz içini yazır, öz ruhunu və dünya duyumunu ifadə edir. "Donmuş dünya", "Şəkil dünya", "Dünyanı şairlər yaradıb", "Belə dünya" şeirləri eyni mövzuya həsr olunsa da, fərqli biçimi və bənzərsiz məzmunu ilə təkrarsızdır.

Onun "Çənlibelli Qoç Koroğlu", "Ağbulaq", "Araz səsi", "Çəkilməmiş şəkillər", "Qırxıncı otaq", "Çiyinlər", "Diaqnoz", "Cəza", "İldırım" kimi poemaları tarixi həqiqətlərə və günümüzün reallıqlarına obrazlı və metaforik yanaşmanın bədii həqiqətə çevirmə bacarığının canlı nümunəsidir.

Şair dostumun on beş cildlik əsərlərinin ikinci cildinə "Vaqif Bəhmənli - özü və sözü" başlıqlı ön söz yazmış filosof-tənqidçi Rahid Ulusel haqlı olaraq qeyd edir ki, "...onun şeirlərinin quruluşuna poetik dinamika xasdır: burada şeirin əvvəlindən sonuna doğru ideyanın hərəkəti baş verir".

**Adil CƏMİL,**
**filologiya üzrə fəlsəfə doktoru,**
**Əməkdar jurnalist.**